# 29 il əvvəl, bu gün...

## Bakı Dəmiryolu Vağzalında Kislovodsk-Bakı sərnişin qatarında terror aktı törədilib

*N.BAYRAMLI*



Hazırda dünyada sülhü və təhlükəsizliyi əsas götürən bütün ölkələrin gündəmindəki mühüm məqamlardan biri terrorçuluğa və beynəlxalq terrorizmə qarşı mübarizə təşkil edir. Uzun illərdir erməni terroruna məruz qalan ölkəmiz də bu mübarizədə ön sıralarda yer alır.

Ermənistan dövlətinin və erməni diasporunun maliyyə və təşkilati yardımı ilə dünyanın müxtəlif ölkələrində fəaliyyət göstərən erməni terror təşkilatlarının Azərbaycana qarşı həyata keçirdiyi terror aksiyaları 1980-ci illərdən başlayaraq ardıcıl xarakter alıb. Azərbaycanın Qarabağ bölgəsi və onun ətrafındakı 7 rayonun işğalı zamanı kütləvi vahimə yaratmaq, çoxlu insan tələfatına nail olmaq məqsədilə Ermənistanın xüsusi xidmət orqanları hərbi əməliyyatların getdiyi ərazilərdən xeyli uzaqda, dinc azərbaycanlı əhalinin yaşadığı məntəqələrdə terror aktları təşkil edib ki, nəticədə də minlərlə günahsız insan həlak olub. Bu dövrdə ermənilərin xalqımıza qarşı terror aksiyaları total xarakter alıb. Daha dəqiq desək, həmin aksiyalar bütün sahələri əhatə edib. Ümumilikdə, götürsək, həmin qanlı aksiyalar aşağıdakı şəkildə təsnifatlandırılır: sərnişin avtobuslarında, sərnişin və yük qatarlarında, hava nəqliyyatında, Bakı metropolitenində, sərnişin daşıyan dəniz bərəsində, mülki şəxslərə və hərbçilərə, həmçinin mülki və dövlət obyektlərinə qarşı törədilmiş terror aktları.

Bu gün - fevralın 1-də məhz belə bir terror aktının baş verməsindən 29 il ötür. Belə ki, 1 fevral 1994-cü ildə Bakı Dəmiryolu Vağzalında Kislovodsk-Bakı sərnişin qatarında terror aktı törədilib. Terror nəticəsində, 3 nəfər həlak olub, 20 nəfər yaralanıb.

Xatırladaq ki, 1993-cü ilin fevral ayında Qudermes stansiyası yaxınlığında "Kislovodsk-Bakı" qatarı, iyun ayında isə Bakı Dəmiryol vağzalında ehtiyat yolda dayanan sərnişin qatarının vaqonu partladılmışdır. İkinci terror aktında insan tələfatı olmasa da, birinci akt nəticəsində 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

1994-cü ildə ermənilər tərəfindən yenidən partladılan sərnişin qatarlarının sayı 3-ə çatmışdır. Fevral ayında yenə Bakı şəhərində "Kislovodsk-Bakı" sərnişin qatarı ilə yanaşı, Xudatda dəmiryolu vaqonu, aprel ayında isə Dağıstan ərazisində "Moskva-Bakı" sərnişin qatarının partladılması nəticəsində 9 nəfər həlak olmuş, 20-dən çoxu yaralanmışdır.

Bütövlükdə, rəsmi məlumatlara əsasən, təkcə 1990-cı illərdə ermənilərin törətdiyi terror aktları nəticəsində 2 min nəfərə qədər azərbaycanlı həlak olub. Bütün bunlar Ermənistanın dövlət səviyyəsində terrorla məşğul olduğunu, daha doğrusu, bir terror dövləti olduğunu bütün çılpaqlığı ilə ortaya qoyur. Çünki xalqımıza qarşı həyata keçirilən terror aksiyalarının böyük bir hissəsinin arxasında məhz Ermənistan dövlətinin durduğu, bu işğalçı ölkənin əsas fəaliyyətinin məhz terrorizmə əsaslandığı kimsəyə sirr deyil. Bu isə onu deməyə əsas verir ki, əslində Ermənistan dövləti, hakimiyyəti və erməni cəmiyyətinin müxtəlif təbəqələri terrordan, günahsız insanların qanının axıdılmasından "mənəvi qida" alıb. Hər halda hələ Azərbaycan torpaqları hesabına Ermənistan adlı dövlət yaradılmazdan öncə ermənilərin zaman-zaman müxtəlif qanlı aksiyalarda baş rolda iştirak etməsi, həmçinin erməni din xadımlərinin bu və ya digər şəkildə qanlı aksiyaları dəstəkləməsi və hətta erməniləri buna sövq etməsi belə deməyə əsas verir.